***AkademikTarih ve Düşünce Dergisi*** ***Academic Journal of History and Idea***
***ISSN: 2148-2292***
***10 (6) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received: 25.05.2023***
***Kabul tarihi |Accepted: 20.07.2023***
***Yayın tarihi |Published: 25.12.2023***

**Ismat Abbas**
https://orcid.org/0000-0002-7673-2094
*PhD student, Ondokuz Mayıs University, Graduate Education Institute, Turkey,* ismatabbas93@gmail.com

***Atıf Künyesi | Citation Info***
Abbas, I. (2023). Qədim Romada Qadın Olmaq. *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (6), 2016-2022.

# Qədim Romada Qadın Olmaq

***Öz***

*Roma ailəsində qadın çox önəmli və müqəddəs sayılmışdır. Digər qədim dövlətlərlə müqayisədə Romadakı qadınlar hüquqi cəhətdən olmasa da sosial həyatda daha sərbəst olmuşdurlar. Kişilərin səlahiyyətlərinin üstünlük təşkil etdiyi Romada qadınların varlığı, ailə və ictimai həyatdakı fəaliyyətləri incələnmişdir. Qədim Roma əfsanələrindən tutmuş Romadakı hüquq sisteminə qədər hər sahədə qadın romalılar üçün önəmli fiqur olmuşdur. Məqalədə Romanın önəmli qadın fiqurlarından Rhea Silvia və Lucretia'nın həyatı, yaşadıqları, eyni zamanda Roma tarixi üçün niyə bu qədər önəmli olduqları incələnmişdir. Eləcə də, qadınların Roma hüququndakı və Roma ailəsindəki rolu də məqaləmizdə araşdırılmışdır.*

***Anahtar kelimeler:*** *Roma, Qadın, Rhea Silvia, Lucretia, Roma hüququ*

## Being a Woman in Ancient Rome

***Abstract***

*In the Roman family, women were considered very important and sacred. Compared to other ancient states, women in Rome were not legally free, but they were freer in social life. The existence of women in Rome, where the powers of men prevailed, and their activities in the family and public life were investigated. From ancient Roman legends to the Roman legal system, women were important figures for the Romans. In the article are analyzed the life and experiences of Rhea Silvia and Lucretia, one of the important female figures of Rome, and why they are so important for the*

*history of Rome. As well as the role of women in Roman law and in the Roman family is also examined in our article.*

***Keywords:*** *Rome, Woman, Rhea Silvia, Lucretia, Roman law*

## Giriş

Məqalədə Qədim Romada qadınların rolu ələ alınmışdır. Qədim sivilizasiyalarda qadınların cəmiyyətdə iştirakı, demək olar ki, yox səviyyəsində olmuşdur. Bəs Qədim Roma yaşamında qadınlar nə dərəcdə önəmli olmuşlardır? Məqalədə bu suala cavab axtaracağıq. Yazımızda ilk öncə Romanın yaranma tarixinə toxunduq. Çünkü Romanın yaranmasında heç şübhəsiz bir qadının, Rhea Silvianın rolu danılmazdır. Daha sonra Roma tarixi üçün başqa bir önəmli fiqur olan Lucretianın həyatını incələdik. Nəyə göre o Roma tarixi üçün bu qədər önəmlidir? Eyni başlıq altında Romanın ən qədim əfsanələrindən biri olan Sabin Qızlarının Qaçırılması əfsanəsini də araşdırdıq. Bu iki hadisənin də əslində təcavüzlük örnəyi olaraq qiymətləndirdik. Bunlarla yanaşı Roma hüququnda qadınların yerini incələdik. Həmçinin bir Roma ailəsində qadınların funksiyaları nələrdir onu araşdırdıq. Onlar sadəcə nəsil artıqmaq üçün bir varlıqdırlarmı yoxsa ailədə qadın önəmli bir mövqedədirmi?

Araşdırma aparılarkən ədəbiyyat icmalı təşkil edilmiş, tapılan qaynaqlar qarşılaşdırılaraq son nəticə yazılmışdır. Məqalədə bir çox modern qaynaqlar istifadə edilmiştir. Lakin araşdırma üçün ən önəmli qaynaq Titus Liviusun "Ab urbe condita" (Roma Tarixi) əsəri olmuştur. Qədim Romanın ən qədim tarixi əfsanələrə əsaslanır. Romanın yaranma tarixi ilə bağlı əfsanələrdə qadın fiqurlarına tez-tez rast gəlinir. Vesta Rahibəsi Rhea Silvia Romanın qurucu mifində mühüm rol oynayır. Rhea Silvianın Aeineias nəslindən olduğu düşünülür.

Troyadan qaçan Aeineiasın oğlu Askanios Latiumda Alba Longa şəhərinin əsasını qoydu. Aeineiasın nəsli uzun illər bu şəhərdə hökmranlıq etmişdi. Bu hakimiyyət dövründə Kral Numitor qardaşı Amilius tərəfindən taxtdan endirildi. Eyni zamanda Amilius Numitorun oğullarını öldürdü və qızı Rhea Silvianı Vesta rahibəsi[1] etdi (Erhat, 1996). Rhea Silvia Savaş tanrısı Marsdan hamilə qaldı və sonradan böyük bir imperiyaya çevriləcək Roma şəhərinin qurucuları Rem və Romulu dünyaya gətirdi (Livius, I.4). Amilius bundan xəbər tutanda qəzəblənib uşaqları səbətdə Tiber çayına atdırdı. Uşaqlar sonradan çoban Faustulus tərəfindən tapıldı. Tapılana qədər dişi bir canavar (lupa) uşaqları yedizdirmişdi. Sonra Faustulusun həyat yoldaşı Acca Larentia əkizləri on iki

---

[1] Vesta Rahibələrinin evlənməyi və uşaq sahibi olmağı qadağan idi. Bununla birlike rahibənin hamilə qalmağı onun ölümü ilə nəticələnirdi. (Erhat, 1996)

uşağiyla bərabər böyütdü (Erhat, 1996). Romul doğulması ilə bağlı həqiqəti onu böyüdən çobandan öyrənəndə Amiliusun sarayına getdi və onu öldürdü. Babası Numitoru yenidən taxta çıxartdı (Erhat, 1996). Rhea Silvianın sonrakı taleyi haqqında heç bir məlumat yoxdur. Lakin Rhea Silvia həmişə Roma cəmiyyətində mühüm fiqur olaraq qalır.

## 1. Qədim Romada qadınlara qarşı zorakılıq nümunəsi kimi Sabin qızları və Lucretia

Qadınlara qarşı zorakılıq bəşər tarixinin hər dövründə aktual olub. Biz bunun nümunələrini e.ə. 753-cü ildə əsası qoyulmuş Roma şəhərində də görürük. Qədim Romada qadınlara qarşı zorakılığa misal olaraq Roma kral əfsanəsi olan "Sabin qızlarının oğurlanması"nı göstərə bilərik.

Roma şəhərinin əsası qoyulandan sonra şəhərin gələcəyi əhalinin artımından asılı idi və bu dövrdə Roma əhalisi demək olar ki, tamamilə kişilərdən ibarət idi. Romul Neptunun şərəfinə festival təşkil etdi və bütün qonşu şəhərləri dəvət etdi. Festival zamanı hamının fikri dağılarkən Romalı kişilər Sabin qızlarını qaçıraraq özlərinə arvad etdilər. Beləliklə, yeni Roma şəhəri inkişaf etməyə davam etdi (Livius, I.9). Bu hadisədən sonra Sabin kişiləri Romaya hücum etdilər. Müharibənin ortasında Sabin qızları Romalılar və Sabinlər arasında müharibənin qarşısını almaq üçün özlərini döyüş meydanına atdılar. Sabin qızlarının bu hərəkətindən sonra romalılarla sabinlilər arasında sülh bağlandı. Bu hadisədən sonra Romul özünü Roma kralı elan etdi və hakimiyyəti Sabin kralı Tatius ilə bölüşdü (Estin, Laporte, 2002). Antik yazıçı Livius bu hadisəni zorakılıq aktı kimi deyil Romulusun hakimiyyətinin təməl daşı kimi təqdim edir. Başqa bir qədim yazıçı Plutarchos hadisəni belə xülasə edir:

> *Romalılar bu qız qaçırmaq hadisəsini Sabinləri alçaltmaq üçün deyil iki xalqı birləşdirmək üçün etdilər* (Plutarkhos, 1960: 14.7).

Bir çox qədim yazıçılar öz əsərlərində Sabin qızlarını Romanın xilaskarları kimi təqdim edir və Roma nəslinin Sabin qızları sayəsində davam etdiyini bildirirlər (Kalaycıoğulları, 2016). Qədim Romada qadınlara qarşı zorakılığın başqa bir nümunəsi kimi Romanın sonuncu kralı Tarquinus Superbusun oğlu tərəfindən zorlandıqdan sonra özünü öldürən ismətli Lucretianı göstərə bilərik. Kral Superbusun oğlu Sextus Tarquinus və bir qrup əsgər düşərgədə yeyib-içərkən ən ismətli qadının kim olduğunu müzakirə etdilər. Collatinus adlı bir əsgər ən ismətli qadının həyat yoldaşı olduğunu iddia etdi. Bu iddianı sınamaq istəyən əsgərlər ərləri evdə olmadığı halda arvadlarının nə etdiyini görmək üçün xəbərsiz evlərinə getdilər. Bütün kişilər arvadlarını kef məclisində tutdular. Collatinusun arvadı Lucretia bu vaxt evdə qulları ilə birlikdə yun əyirirdi. Beləliklə, ən ismətli arvadın Lucretia olduğuna qərar verildi. Bu hadisədən bir neçə gün sonra

Tarquinus Collatinusun evinə gəldi və Lucretiaya təcavüz etdi. Lucretia hadisəni atasına və ərinə danışıb və özünü ürəyindən bıçaqlayaraq intihar etdi (Livius, 2012).

Lucretia intihar etdikdən sonra Collatinus qisas almaq istədi və arxasınca xalq ilə birlikdə Romaya doğru irəlilədilər. Nəticədə Kral Tarquinus taxtdan endirildi. E.ə. 509-cu ildə (508) Romada respublika rejimi quruldu (Tekin, 2018). Romada Sabin qızlarına qarşı zorakılıqla başlayan monarxiya rejimi başqa bir qadına – Lucretiaya qarşı zorakılıqla sona çatdı.

## 2.Romada hüquq subyekti kimi qadınlar

Roma kişilərin üstünlük təşkil etdiyi bir cəmiyyət idi. Ailəyə *(familia) patria potestasın* bütün üzvləri daxildir. *Patria potestas* ailə başçısı olan pater familianın bütün ailə üzvləri və qullar üzərində hökmranlığını aqnatik[2] mənada ifadə edirdi (Doğancı, 2014). Roma hüququnda qadın doğulduğu anda atasının hakimiyyəti altında idi. O, evlənəndə kişinin ərinin hakimiyyəti altında olması üçün qadın üzərində manus qoyulmalı idi (Erişgin, 2013). Latın dilində *"əl"* mənasını verən *"manus"* Roma ailəsində kişilərin qadınlar üzərində hökmranlığını ifadə edir (Yalova, 2013). *Manus* hətta nikahsız da baş verirdi və manus olanda qadının bütün əmlakı ərinin ixtiyarında keçirdi. *Manus* evlilik bitəndə belə davam edə bilərdi (Akıncı, 1999). Romada qadınlar fərd sayılmaq üçün atasının, qardaşının və ya ərinin hökmranlığı altında olmalı idilər. Kişilərin qadınlar üzərindəki bu hökmranlığına *"alieni iuris"*[3], heç bir kişinin ağalığı altında olmayan müstəqil qadına isə *"sui iuris"*[4] deyilirdi (Kocakuşak, 2011). Evlilik *manus*u olan yad *iuris* qadın atasının hökmranlığından çıxıb həyat yoldaşının və ya onun *patria potestat*ının hökmranlığı altına girirdi. Əgər qadın *sui iuris* idisə, *manus*la evlənəndə o, *alieni iuris* olurdu. *Manus*suz evlilik *sui iuris* qadın *alieni iuris* ola bilməzdi (Akıncı, 1999). *Sui iuris* qadın ərə getdikdə əgər *manus*suz nikah bağlanarsa nikahdan əvvəl hətta evləndikdən sonra da malik olduğu mal-mülkə sahib olar bilərdi. *Alieni iuris* qadınları isə evlilikdən əvvəl olduğu kimi evləndikdən sonra da mal-dövlət sahibi ola bilmirdilər (Emiroğlu, 2001).

Qədim Romada qadınlar *pater familias* ola bilməzdilər, çünki Romada tətbiq olunan *"familiae suae caput et finis"* (qadın ailənin başçısı və sonudur) qaydasına görə ailəni qadınlar vasitəsilə saxlamaq mümkün deyildi (Berki, 1957). *Pater potestas* altında olan bütün qadınlar *mater familia* adlanırdı. Ailənin atası olmadığı və ya öldüyü zaman *mater familias pater potestas*

[2] Roma huquq sistemində uzun zaman keçərli olan ve ailə rəisinin hakimiyəti əsasına təikil edilən ailə sisteminə "agnatio" deyilir.
[3] Latın dilindən tərcümədə "bir başqasına aid olmaq huququ" mənasını verir.
[4] Latın dilindən tərcümədə "özünün huququ" mənasını verir.

səlahiyyətinə malik deyildi. Ona görə də *mater familias* heç vaxt qanuni müddəaya malik olmayıb. Əslində *mater familias* Qədim Romada həmişə ləyaqətli qadın olmuşdur. Qullar, fahişələr, əcnəbilər və zina edənlər bu kateqoriyaya daxil deyildi. *Mater familias* anlayışı imperator Oktavəan Avqustun dövründə (e.ə. 27 – e.ə. 14) hər evli və ya subay qadının əldə etmək istədiyi statusa çevrildi (Gönenç, 2010). Romada *sui iuris* qadınlara tərbiyəçi *mulieres* (qəyyum) təyin edilirdi. Bu qəyyumluğun məqsədi qadınların malını qorumaq idi. Qadın əmlakla bağlı bütün əməliyyatları bu qəyyum vasitəsilə həyata keçirə bilirdi. Qadınların qəyyumlarının razılığı olmadan təkbaşına etdikləri qanuni hərəkətlər etibarlı sayılmırdı (O'Keeffe, 2004). Klassik hüquqi dövrdən qadınlar üzərində qəyyumluq yumşaldılmağa sonra isə yalnız formal xarakter daşımağa başladı. 390-cı ilə qədər qadınların uşaqlar üzərində qəyyumluq hüququ yox idi. İmperator Yustinian dövründə (527-565) evlənməmiş dul qadınlara uşaqlarına qəyyumluq verilməsi qaydası tətbiq edildi. Eyni zamanda Roma hüququnda oğlan və qızlar arasında heç bir ayrı-seçkilik yox idi. Qızlar da oğlanlarla bərabər vərəsəlik hüququna malik idilər (Erişgin, 2013). Roma hüququnda qadınlar ictimai işlərdə iştirak etmirdilər. Qadın imperator ola bilməz, səs verə bilməz, vəkil və ya hakim ola bilməzdi (Thomas, 2005) Bu qayda yalnız Vesta Rahibələrinə aid deyildi. Romada Vesta Rahibələri atəşin keşikçiləri hesab olunurdu və onları zorlamanın cəzası ölüm idi. Vesta Rahibəsi olmaq üçün seçilən qızlar heç bir mərasim keçirilmədən ata evindən uzaqlaşdırıldı. Vesta Rahibləri də vəsiyyətnamələrin hazırlanmasında və məhkəmələrdə and içmədən ifadə verə bilirdilər (Gaudemet, 1972).

### 3.Roma ailəsində qadınların rolu

Roma ailəsində qadın evə dustaq edilməmişdir, əyləncə və ziyafətlərdə iştirak edə bilirdi. Ailədə qadının ən mühüm vəzifələrindən biri də övlad dünyaya gətirməklə yanaşı onu düzgün və əxlaqi cəhətdən böyütmək idi. Anaya ehtiram Roma qanunu ilə təmin edilirdi. Ata və ya ananı vurmağın cəzasını şəhər qubernatoru verirdi (Gaudemet, 1972). Roma ailəsində qızlar müəyyən yaşdan sonra uşaqların baxımında analarına kömək edirdilər. Qızlar gələcəkdə öz övladlarını böyüdəcəkləri üçün onlar təhsildən məhrum edilməyib evdə təhsil alaraq yazıb-oxumağı öyrənirdilər (Gönenç, 2010). Qədim Romada evlənəcək qadının bakirəliyinə önəm verilir, iffətli qadınlara hörmət edilirdi. Qadın həm də ana olacağından iffətli qadının uşağını daha yaxşı böyüdəcəyinə inanılırdı (Kocakusak, 2011). Roma ailəsində analıq müqəddəs bir peşə sayılırdı və uşaq böyütməyin ən çətin hissəsini qadınlar öz üzərinə götürdülər. Əslində Romada uşaq böyütmək ümumiyyətlə qadın işi kimi qəbul edilirdi.

Romada yaşlı və subay qadınların sayı çox az, dul qadınların isə sayı daha çox idi. Bunun səbəbi evli cütlüklər arasında yaş fərqinin çox olması idi. Yaşlı Roma kişiləri gənc qızlarla evlənirdilər və qadınların çoxu ərlərini itirərək dul qalırdılar. Dul qadınlar cəmiyyətdə təzyiqlərə məruz qalır, hətta onların yenidən ailə qurması üçün bəzi qanunlar da qəbul edilirdi. Əslində imperator Augustusun qanunlarında dul qadınların yenidən ailə qurmadıqları zaman müəyyən cəzalara məruz qalması nəzərdə tutulurdu. VI əsrdə xristianlığın qəbulu ilə bu cəzalar qanundan çıxarıldı (Grubbs, 2002). Kölə qızların statusu isə digər qadınlardan daha çox fərqlənirdi. Qədim Romada kölə qızlar ailələri ilə az vaxt keçirirdilər. Adətən xidmət göstərdikləri evdə olan kölə qızlar çoxlu ev işləri, tikiş tikmək, yun toxumaq və s. kimi işləri onlar gənc yaşlarında öyrənib bu işlərdə çalışırdılar. Kölə qızların azad edilmə halları da olurdu. Azad edilmiş bu kölə qızlar çox vaxt fahişə və ya aktrisa kimi işləyirdilər. Azad edilən qızların çoxu da fahişəxanalarda işlədilirdi (Clark, 1981).

## Sonuç

Digər qədim sivilizasiyalarla müqayisədə Romada qadınların vəziyyəti daha yaxşı idi. Lakin Roma cəmiyyətində (*mater familias* istisna olmaqla) zorakılığın və zülmün qarşısını alan heç bir qurum və ya qanun olmamışdır. Buna baxmayaraq Qədim Romada qadınlar hər sahədə nüfuz sahibi idilər. Gündəlik həyatdan siyasi həyata qədər hər yerdə qadının önəmli yeri olmuşdur. Roma qadınları seçmək və seçilmək hüququna malik olmasa da bəzi qadınlar siyasi həyatda nüfuz sahibi idilər. Əhəmiyyətli vəzifələrdə çalışan Roma kişilərinin arvadları onların siyasi həyatına cəlb edilmiş və qərarlarında təsirli rol oynamışdırlar. Romanın imperatorluq tarixinə nəzər saldıqda imperiyanın tarixində sülalə qadınlarının təsirlərini görürük. Ümumiyyətlə, Romanın yaranma tarixindən etibarən bütün dövürlərində qadınların Roma tarixi üçün əhəmiyyətini görə bilirik. Roma şəhərinin yaranmasında Rhea Silvianın, Krallıqdan Respublika quruluşuna keçməsində isə Lucretianın etdiklərini qeyd etmək olar. Bütün bunlara əsasən deyə bilərik ki, dünya tarixinin hər dövründə olduğu kimi Qədim Roma dövründə də qadın cəmiyyətin ən mühüm şəxsiyyəti olmuşdur.

## Kaynaklar

Akıncı, Ş.(1999). *Roma Hukuk Dersleri*, Nobel Yayınları.

Berki, Ş.(1957). Romada Aile Hukuku. *Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi, 14* (1-4), 111-121.

Clark, G.(1981). Roman Women, Greece & Rome, *Cambridge University Press, Second Series*, 28 (2). ss. 193-212.

Doğancı, K. Kocakuşak, F. (2014). Eski Roma Ailesinde *Pater Familia* ve *Patria Potestas* Kavramları, *Uludağ Üniversitesi, Fen Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi*, *16*, (27), 233-250.

Erhat, A.(1996). *Mitoloji Sözlüğü*, Remzi Kitapevi.

Erişgin, Ö.S.(2013). Roma Toplumunda Kadının Konumu. *İnönü Üniversitesi Hukuk Fakültesi Dergisi*, *4*, (2), 1-31.

Estin, C. Laporte, H. (2002). *Yunan ve Roma Mitolojisi*, (Çev.) Musa Eran, Tübitak Popüler Bilim Kitapları.

Gaudemet, J. (1972). Roma İmparatorluğu'nda Kadının Hukuki Durumu. *Mukayeseli Hukuk Araştırmaları Dergisi*, 6 (9), (Çev.) Bülent Tahiroğlu, 205-230.

Gönenç, F. İ. (2010). *Roma Hukukunda Kadın*, On İki Levha Yayıncılık.

Grubbs, J. E.(2002). *Women and The Law in The Roman Empire: A Sourcebook on Marriage, Divorce and Widowhood*, Routledge.

Haluk E. (2001). Roma Klasik Hukuk Dönemi'nde Mal Rejimi. *Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi*, *50* (3), 175-183.

Kalaycıoğulları, S. G. (2016). *Klassik Dönem Yazarlarında Roma Kadınının Tasviri: Krallık'ın Kuruluşundan Cumhuriyet'in Yıkılışına Giden Süreçte Roma'da Kadın*, [Yayınlanmamış Doktora Tezi, Ankara Üniversitesi].

Kocakuşak, F.(2011). *Antik Roma'da Aile Kurumu*, [Yayınlanmamış Yüksek Lisans Tezi, Uludağ Üniversitesi]. Yök Tez

Livius, T. *Ab Urbe Condita, I.*

Livius. T.(2012). *Roma Tarihi I*, (Çev.) Uğur Yılmaz, İlya İzmir Yayın Evi.

O'Keeffe, A. K. (2004). *Augustus as Pater Familias*, The University of Georgia.

Plutarkhos (1960). *Life of Romulus*, (Çev.) John Dryden, Modern Library.

Tekin, O. (2018). *Eski Yunan ve Roma Tarihine Giriş*, İletişim Yayınları.

Thomas, Y.(2005). Roma Hukukunda Cinsiyet Ayrımı. *Kadınların Tarihi- Ana Tanrıçalardan Hristiyan Azizlere*, C. 1, Türkiye İş Bankası Yayınları.

Yalova, E. (2013). *Türkçe-Latince Sözlük*, Sosyal Yayınlar.